**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Fakültə : İqtisadiyyat və idarəetmə**

**Təsdiq edirəm:**________________

**"İqtisadiyyat" kafedrasının**

**müdiri: i.ü.f.d.,dos. S.İ. Hümbətova**

**"Biznes hüququ" fənni üzrə**

# İŞÇİ TƏDRIS PROQRAMI

**(Sillabus)**

## I. Fənn haqqında məlumat

**Fənnin kodu:** *00195*

**Fənnin növü:** *əsas*

**Tədris semestri:** *payız*

**Tədris forması:** *əyani*

**Tədris yükü:** *60 saat*

**Kredit sayı:** 4

**Kafedra:** "İqtisadiyyat"

**III.Fənnin təsviri**

Bu fənn onun predmeti, obyekti, metodikası ilə yanaşı, kursun proqramına uyğun olaraq hüququn əsas anlayışlarının, biznes hüququnun yaranma mərhələlərinin, hüquq normalarının biznes mühitinə və mübahisələrə tətbiqi üsullarının, biznes hüququ üzrə münasibətlərin hüquqi tənzimlənməsi metodlarının, sahibkarlıq hüquq münasıbətləri subyektlərinin hüquq subyektliyinin, statusunun, yaranmasının və fəaliyyətinin hüquqi nizamlanmasının əsas kateqoriyalarının, əmək hüquq subyektliyinin norma və qaydalarının, cinayət hüququnun əsas kateqoriyalarının, məhkəmə hüquq islahatlarının dərinləşdirilməsi çərçivəsində kommersiya məhkəmələrinin yaradılmasının sahibkarların hüquqlarının təmin edilməsinin səmərəliliyini artırmaqla biznes mühitinin inkişafında əhəmiyyətinin ətraflı öyrənilməsi və tədris edilməsini əks etdirir.

**IV. Fənnin məqsədi və vəzifələri**

Fənnin tədrisinin məqsədi:

“Biznes hüququ” kursunun məqsədi tələbələrə ümumilikdə kursun proqramına uyğun olaraq iqtisadi fəaliyyət reallaşdırılan zaman bu və ya digər formada istinad edilən hüquq sahələri haqqında bilgilərin aşılanmasıdır. Dövlət məcburiyyəti təsiri ilə qorunan hüquq normaları sistemi, hüquq institutları, o cümlədən müqavilə hüququ, öhdəlik hüququ, korporativ sosial məsuliyyət ilə cinayət məsuliyyətinin fərqi, kommersiya münasibətlərində mübahisıdələrin alternativ həlli üsullarının əhəmiyyəti və s. haqqında təsəvvürün yaradılması kursun tədrisinin mühüm məqsədlərindən hesab edilir.

Fənnin tədrisi qarşısında duran vəzifələr:

- tələbələrə biznes hüququ, onun predmeti və vəzifələri, biznesmünasibətlərində hüququn yeri və rolu, biznes hüququmünasibətlərinin tənzimlənməsinin hüquqi təminatı kimi çıxış edən müxtəlif mənbələr, ticarət hüququ, korporativ hüququ, kommersiya hüququ, cinayət hüququəmək hüququ və bu sahdə yaranmış mübahisələrin məhkəmə, arbitraj və kvazməhkəmə (arbitraj) sturukturlarının sistemihaqqında ümumi anlayış və məlumat vermək;
- biznes hüquq münasibətlərinin subyektlərinin statusunu müəyyən edilməsi, korporasiyaların formalaşdırılması proseduru, sahibkarlıq fəaliyyətinin əsas hüquqi forması kimi müqavilənin formalaşdırılması qaydaları, öhdəliklərin təminatı üsullarını təyinatı üzrə düzgün tətbiqi,

əmək müqaviləsi ilə xidmət müqaviləsi arasındakı fərqin təhlili, biznesdə etik davranışın mənfəətləri, korporativ standartlar, müəlliflik qanunvericiliyi, kommersiya sirri sayılan məlumatlardan qanunsuz istifadəyə görə məsuliyyət, hüquqi müstəvidə yaranan kommersiya mübahisələrinin həllinin hüquqi əsasları

haqqında nəzəri baxımdan mülahizə yürütmək kimi qabiliyyətlər əldə etmələrinə dəstək olmaq.

**V. Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması,Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatların tövsiyyələrini komanda çalışmaları şəklində müzakirə etmək, yerli və beynəlxalq normativ hüquqi sənədlərin, o cümlədən Azərbaycan Respunlikasının radifikasiya etdiyi beynəlxalq sənədlərin öyrənilməsi və təhlili, sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

**VI. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr**bilməlidirlər:**

- Biznes hüququ fənninin nəzəri əsaslarını;
- AR-nın korporativ qanunvericiliyini təşkil edən normativ hüquqi aktlar,Azərbaycan Respublikasının qəbul edib və təsdiqlədiyi (radifikasiya etdiyi) beynəlxalq konvensiyalar (müqavilələr, xartiyalar, sazişlər) və hüququi qüvvəyə malik olan digər normativ hüquqi aktlar barəsində ətraflı məlumatları.

**Bacarmalıdırlar**:

- Biznes hüquqmünasibətləri haqqında sərbəst mülahizələr yürütmək;
- kommersiya və qeyri-kommersiya hüquqi şəxs formalarını fəqrləndirməyi: MMC, SC-lər, ortaqlıqlar, asossiasiyalar və s. şirkətlərin qeydiyyatı prosedurnu; şirkətlərin ləğvi və yenidən təşkili prosedurunu; müqavilələrin baglanması, dəyişdirilməsi və ləgvi qaydalarını; öhdəliklərin təminatı üsullarını təyinatı üzrə düzgün tətbiq etməyi; əmək müqaviləsi ilə xidmət müqaviləsi arasındakı fərqi təhlil etməyi; işgüzar nüfuzun, müəlliflik hüququnun, kommersiya sirrinin qorunması şərtləri və müdafiəsini
- Qanunlar, normativ hüquqi aktlar, onların tətbiqi və yerinə yetirilməməsi zamanı hüquq münasibətləri iştirakçılarına qarşı tətbiq olunacaq hüquqi sanksiyaların nəticləri haqqında sərbəst şəkildə məlumat vermək.

**VII. Prerekvizitlər**

Yoxdur

**VIII. Fənnin mühazirə mövzuları**

Burada fənn üzrə tələbələrə oxunacaq mühazirə mövzularının adları təqdim olunur:

1.Hüququn mənbələri
2.Biznes hüququnun əsasları. Biznes hüququnun subyektləri
3.Hüquqi şəxslərin yaradılması, ləgvi və yenidən təşkili
4.Korporasiyaların formalaşdırılması
5.Hüquqi şəxslərin təşkilati-hüquqi forması kimi təsərrüfat cəmiyyətlərinin növləri və kooperativlər
6.Korporatividarəetmə
7.Əqdlər. İddiamüddəti
8.Müqavilələrin formalaşdırılması
9.Öhdəlikərin təminatı
10.Əmək müqaviləsinin anlayışı və bağlanmasının ümumi qaydası
11.Əmək müqaviləsinin xitam edilməsi
12.Korporotaiv sosialməsuliyyət və cinayət məsuliyyəti
13.İşgüzar nüfuz və əqli mülkiyyət hüququ
14.Mübahisələrinalternativhəllimetodları
15.Mübahisələrin məhkəmə qaydasında həlli

## IX. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.unec.edu.az ) yerləşdirilir.

## X. Əsas dərslik və ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı-1995
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. 26 may 2000
3. Azərbaycan Respublikaının Əmək Məcəlləsi, 01 fevral 1999
4. Azərbaycan Respublikaının Cinayət Məcəlləsi, 30 dekabr 1999
5. .«Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 26 noyabr1999
6. Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi 01 iyul 2024
7. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası Bakı, 2009
8. Azərbaycan Respublikasının "Kommersiya sirri" haqqında Qanunu, Bakı şəhəri, 4 dekabr 2001
9. Azərbaycan Respublikasının "Patent haqqında" Qanunu, Bakı şəhəri, 25 iyul 1997
10. Azərbaycan Respublikasının " Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunu Bakı şəhəri, 5 iyun 1996

11. Azərbaycan Respublikasının “ Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Qanunu, Bakı şəhəri, 12 iyun 1998
12. Azərbaycan Respublikasının “Korrupsiyaya qarşı mabarizə haqqında” Qanunu, Bakı şəhəri, 13 yanvar 2004
13. Azərbaycaan Respublikaının “Mediasiya haqqında ” Qanunu, Bakı şəhəri, 29 mart 2019
14. AR–nın Konstitusiyası;AR Prezidentinin 03 aprel 2019-cu il tarixli məhkəmə- hüquq islahatlarının dərinləşdirilməsi haqqında Fərmanı
15. S.X.Aslanov “Sahibkrlıq hüququ” Bakı-2005
16. S.S. Allahverdiyev. “Azərbaycan Respublikasının mülki hüququ”. Dərslik. III cild. Bakı-2008
17. Qasımov A.M ”Əmək hüququ”Dərslik. Bakı, 2007
18. Ağayev *İ.B.* Azərbaycan Respublikasının Cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Dərslik. Bakı, 2010.
19. E.Kərimov Azərbaycan korporativ hüququ, 2014
20. R.Quliyev ”Korporativ sosial məsuliyyət” Bakı 2017
21. . “Mediasiya mübahisələrin məhkəmədənkənar alternativ həlli üsulu kimi” . Bakı-2009
22. . R.Mrzəyev “Mediasiya” Mübahisələrin alternativ həlli mexanizmlərinin tətbiqi və hüquqi yardım xidmətlərinin göstərilməsi layihəsi. Bakı-2020.
23. . Z.Əsgərov,E.Nəsirov, M.İsmayılov, X.Məmmədov - Azərbaycanın dövlət və hüququnun əsasları. Dərs vəsaiti, Bakı-2003
24. Андреева Л.Б. «Коммерческое право».М.2012
25. Ершов И.В. «Современное предпринимательское право» М 2017

Hər bir mövzu üzrə əlavə ədəbiyyat mühazirə zamanı təqdim edilə bilər.

## <u>XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü</u>

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| **1** | Hüququn mənbələri | Hüququn anlayışı və hüquq münasibətləri. Hüquq normaları . Normtiv hüquqi aktların iyerarxiyası. Hüquq pozuntusu və hüquqi məsuliyyət | AR–nın Konstitusiyası;«Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 26 noyabr1999 |

| | | | |
|---|---|---|---|
| | | | S.Allahverdiyev "AR-nın Konstitusiyası və Hüququn əsasları", dərslik. Bakı-2007 |
| **2** | Biznes hüququnun əsasları<br>Biznes hüququnun subyektləri | Biznes hüququnun tarixi. Fiziki şəxslər və hüquqi şəxslər biznes hüququnun subyekti kimi | AR-nın Mülki Məcəlləsi. 26 may 2000.<br>S.Allahverdiyev – AR-nın Mülki Hüququ. Dərslik, 3-cü cild<br>Ершов И.В. «Современное предпринимательское право» М 2017 |
| **3** | Hüquqi şəxslərin yaradılması, ləgvi və yenidən təşkili | Hüquqi şəxslərin yaradılması qaydaları, növləri. Təsviyyə. Hüquqi şəxslərin yenidən təşkili | AR-nın Mülki Məcəlləsi. 26 may 2000.<br>S.Allahverdiyev – AR-nın Mülki Hüququ. Dərslik. Bakı-2008 |
| **4** | Korporasiyaların formalaşdırılması | Hüquqi şəxsin nümayındəliyinin və filialının anlayışı, hüquqi statusu, yaradılması, fəaliyyəti və ləgvi.<br>Təsərrüfat ortaqlıqları və cəmiyyətlərinin anlayışı, yaradılması, fəaliyyəti və ləgv edilməsi. Tam ortaqlıqlar və kommandit ortaqlıqlar | AR-nın Mülki Məcəlləsi. 26 may 2000.<br>S.Allahverdiyev – AR-nın Mülki Hüququ. Dərslik Bakı-2008. S.X.Aslanov "Sahibkrlıq hüququ" Bakı-2005 |
| **5** | Hüquqi şəxslərin təşkilati-hüquqi forması kimi təsərrüfat cəmiyyətlərinin növləri və kooperativlər | MMC-nin anlayışı, mahiyyəti, hüquqi statusu, yenidən təşkili və ləgvi. ƏMC-in anlayışı və hüquqi təbiəti, iştirakçılarının məsuliyyəti. SC- in anlayışı, yaradılması, fəaliyyəti, yenidən təşkili və ləgvi. Açıq və qapalı səhmdar cəmiyyəti. Kooperativlərin mahiyyəti, növləri və xüsusiyyətləri , hüquqi statusu, yaradılması, ləgvi və yenidən təşkili qaydaları | AR-nın Mülki Məcəlləsi. 26 may 2000.<br>S.Allahverdiyev – AR-nın Mülki Hüququ. Dərslik<br>Андреева Л.Б. «Коммерческое право». М.2012 |

| | | | |
|---|---|---|---|
| **6** | Korporativ idarəetmə | Korporativ idarəetmənin anlayışı və təşkili, şirkətlərarası və şirkətdaxili münasibətlərin təşkili, təsis sənədləri, strukturu və fəaliyyətinin hüquqi tənzimlənməsi. Divident hüququnun anlayışı, ödənilməsi qaydaları, müddəti və miqdarı. Fidusiar öhdəliklər. Rəqabətin anlayışı,formaları və növləri. Haqsız rəqabət. İnhisarşılıgın anlayışı, növləri. Antiinhisar qanunvericiliyi | AR-nın Mülki Məcəlləsi. 26 may 2000. E.Kərimov Azərbaycan korporativ hüququ, 2014 AR-nın Rəqabət Məcəlləsi, 01 iyul 2024 |
| **7** | Əqdlər. İddia müddəti | Əqdlərin anlayışı,əlamətləri,təsnifi, etibarlılıq şərtləri. Əqdin etibarsızlıgı və konversiyası. Əqdlərdə təmsilçilik. Kommersiya təmsilçiliyi. Xüsusi əhəmiyyətli əqdlərin anlayışı, baglanma qaydası. Aidiyyəti şəxslərlə əqdlərin anlayışı, baglanma qaydası.Etibarəmənin anlyışı, növləri, formaları və xitam verilməsi. İddia müddətinin anlayışı, növləri, axımının başlanması, dayandırılması və kəsilməsi.İddia müddətinin şamil edilmədiyi tələblər. | AR – nın Konstitusiyası. AR-nın Mülki Məcəlləsi. 26 may 2000. S.Allahverdiyev – AR-nın Mülki hüququ. Dərslik. Bakı-2008 |
| **8** | Müqavilələrin formalaşdırılması | Müqavilənin anlayışı, mühüm şərtləri, forması, növləri, standart şərtləri.Oferta. Aksept. Müqavilənindəyişdirilməsivələgvedilməsi. | AR – nın Konstitusiyası. AR-nın Mülki Məcəlləsi. 26 may 2000. S.Allahverdiyev – AR-nın Mülki hüququ. Dərslik. Bakı-2008 |
| **9** | Öhdəlikərin təminatı | Öhdəliklərin icrasının təmin edilməsi üsulları təyinatı və məqsədi. Dəbbə pulu. Beh. Girov. Zaminlik. Qarantiya | AR-nın Mülki Məcəlləsi. 26 may 2000. S.Allahverdiyev – AR-nın Mülki hüququ. Dərslik. Bakı-2008Андреева Л.Б. «Коммерческое право».М.2012 |
| **10** | Əmək müqaviləinin | Əmək və xidməti müqavilələr. | AR – nın Konstitusiyası. AR-nın Əmək Məcəlləsi. |

| | | | |
|---|---|---|---|
| | anlayışı və bağlanmasının ümumi qaydası | Əmək müqaviləsinin baglanma qaydası.<br>Əmək müqaviləsi üzrətərəflərin əsas hüquq və öhdəlikləri. | 01 fevral 1999.<br>A.Qasımov - Əmək Hüququ. Dərslik Bakı-2005<br>•Əmək hüququnun subyekti kimi işçinin hüquqi statusu. Prof. A.Qasımov, h.ü.f.d. Ə. Mustafayeva. Monoqrafiaya. Bakı. Qanun, 2015.<br>•Əmək hüququ üzrə işçinin məsuliyyətinin hüquqi tənzimlənməsi. Dərs vəsaiti. h.ü.f.d. Ərəbiyyə Mustafayeva. UNEC nəşriyyatı, 2024<br>"İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 12 avqust 2024-cü il tarixli Fərmanı |
| **11** | Əmək müqaviləsinə xitam verilməsi | Əmək müqaviləsnin ləfv edilməsinin əsasları.<br>İşdən çıxarma üçün əsaslar. Ixtisar üçün hallar. İşdənçıxrma və ixtisar hallarında işçilərin hüquqları | AR – nın Konstitusiyası. AR-nın Əmək Məcəlləsi. 01 fevral 1999. |

| | | | |
|---|---|---|---|
| | | | A.Qasımov - Əmək Hüququ. Dərslik Bakı-2005<br>•Əmək hüququnun subyekti kimi işçinin hüquqi statusu. Prof. A.Qasımov, h.ü.f.d. Ə. Mustafayeva. Monoqrafiaya. Bakı. Qanun, 2015.<br>•Əmək hüququ üzrə işçinin məsuliyyətinin hüquqi tənzimlənməsi. Dərs vəsaiti. h.ü.f.d. Ərəbiyyə Mustafayeva. UNEC nəşriyyatı, 2024<br>"İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 12 avqust 2024-cü il tarixli Fərmanı |
| **12** | Korporativ sosial məsuliyyət və | Biznes etikası və korporativ sosial məsuliyyət<br>Cinayət və cinayət məsuliyyəti<br>Çirkli pulların yuyulması | AR – nın Konstitusiyası. AR-nın Cinayət Məcəlləsi. 30 dekabr 1999. AR- nın Cinayət Məcəlləsinin |

| | | | |
|---|---|---|---|
| | cinayət məsuliyyəti | | Kommentariyası Bakı, 2009<br>AR-nın “Korrupsiyaya qarşı mabarizə haqqında”Qanunu.13.01. 2004.<br>İ.B.Ağayev . AR-nın Cinayət hüququ. Ümumi və Xüsusi hissələr. Dərslik. Bakı-2010 R.Quliyev ”Korporativ sosial məsuliyyət” Bakı 2017 |
| **13** | İşgüzar nüfuzvə əqli mülkiyyət hüququ | İşgüzar nüfuzun, müəlliflik hüququn anlayışı, müəlliflik qanunvericiliyi, müəlliflik hüququnun müdafiəsi. Patent hüququnun anlayışı, mənbələri və müdafiəsi. Əmtəə nişanı hüququnun anlayışı, qorunma şərtləri və növləri.Kommersiya sirri hüququnun anlayışı, qorunma şərtləri. Nou- hau anlayışı. | AR-nın Mülki Məcəlləsi. 26 may 2000. S.Allahverdiyev – AR-nın Mülki hüququ. Dərslik. Bakı-2008 AR-nın “Kommersiya sirri” haqqında Qanunu, Bakı şəhəri, 4 dekabr 2001<br>“Patent haqqında” AR-nın Qanunu, Bakı şəhəri, 25 iyul 1997-ci il. |
| **14** | Mübahisələrin alternativ həlli metodları | "MAH"termininin anlayışı. Mediasiya prosesinin anlayışı, tərərfləri, mərhələləri xitam verilməsi.<br>Arbitraj. | AR-nın “Mediasiya haqqında ” Qanunu, Bakı şəhəri, 29 mart 2019.<br>N.Abdullayev “Mediasiya mübahisələrin məhkəmədənkənar alternativ həlli üsulu kimi” . Bakı-2009<br>R.Mrzəyev “Mediasiya” Mübahisələrin alternativ həlli mexanizmlərinin tətbiqi və hüquqi yardım xidmətlərinin göstərilməsi layihəsi. Bakı-2020. |

| | | | |
|---|---|---|---|
| **15** | Mübahisələrin məhkəmə qaydasında həlli | Məhkəmə qurluşu. Hakimlərin rolu. Məhkəmə və MAH metodlarının fərqli cəhətləri | AR–nın Konstitusiyası; AR Prezidentinin 03 aprel 2019-cu il tarixli məhkəmə- hüquq islahatlarının dərinləşdirilməsi haqqında Fərmanı; Z.Əsgərov,E.Nəsirov,M.İsmayılov, X.Məmmədov - Azərbaycanın dövlət və hüququnun əsasları. Dərs vəsaiti, Bakı-2003 |

## I. XII. Seminar-məşğələlər: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar dərsləri tələblərin təqdimatı, komanda çalışması, əlavə fərdi tapşırıqlar və test tapşırıqlarının yerinə yetirilməsi ilə keçirilir. Tələbələr həmçinin əlavə mövzular üzərində çalışaraq apardıqları elmi tədqiqatlarını da seminar dərsində təqdim edə bilərlər.

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## XIII.Fənn üzrə kurs işi

Fənn üzrə kurs işi yoxdur

## XIV. Fənn üzrə sərbəst işlər

Fənn üzrə sərbəst iş yoxdur

## XV. Dərsə davamiyyət:

Tələbə fənn üzrə ümumi tədris yükünün 25%-dən çox (14 saatdan çox) dərs buraxarsa, o, yekun imtahana buraxılmır. Bu halda tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

## XVI. Fənn üzrə yekun qiymətləndirmə

Cari qiymətləndirmə üzrə 50 bal bakalavr semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və aşağıdakı qaydada formalaşır:

Seminar dərslərində və praktik məşğələlərdəqiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

Seminar dərslərində alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B=(((b1+b2+b3+...+bn)/s)*m)/10$$

Burada,

B-yekun aktivlik balı;

b - seminar dərslərində alınan müxtəlif ballar;

s- semestr ərzində verilən cavabların sayı;

m-aktivlik balına ayrılan maksimal bal;

10 - bir seminar dərsində toplanan maksimal baldır.

Semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər.

Semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, tələbə fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsil alanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

Fənn üzrə tələbələrin müvafiq krediti toplaması üçün zəruri olan 100 balın toplanması aşağıdakı kimi formalaşır:

**50 bal semestr ərzində,**

o cümlədən:

**20 bal –** seminar məşğələlərində aktivlik balı;

**30 bal** – aralıq imtahanından əldə edilən bal

**50 bal** – imtahandan toplanılan bal.

İmtahan test üsulu ilə keçirilir. İmtahan testlərinin sayı 50 olmaqla hər biri 1 bal nisbəti ilə qiymətləndirilir.

**Qeyd:**

İmtahan və imtahana qədər toplanılan ballar cəmlənir və yekun miqdarı aşağıdakı kimi qiymətləndirilir:

**A** – “Əla” - 91-100

**B** – “Çox yaxşı” – 81-90

**C** – “Yaxşı” - 71-80

**D** – “Kafi” – 61-70

**E** – “Qənaətbəxş” – 51-60

**F** – “Qeyri-kafi” – 51baldan aşağı